# Bakıda Beynəlxalq Qısa Filmlər Festivalı

**12-ci Bakı Beynəlxalq Qısa Filmlər Festivalının (BQFF) açılış mərasimində əvvəlcə torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.**

**"CINEMA" Gənc Kinematoqrafçılar Mərkəzinin sədri Fehruz Şamiyev** mərasimdə çıxış edərək bildirib ki, noyabrın 23-dək davam edəcək festivalda tamaşaçılar bir-birindən maraqlı filmləri izləyəcəklər. Festivalda yer alan yerli və xarici qısa filmlər 5 gün müddətində saat 12:00-dan Nizami Kino Mərkəzində nümayiş olunacaq.

Mərasimdə bildirilib ki, festivala 76 ölkədən 3217 qısa film göndərilib. Bunlardan 82 film yerli müsabiqəyə təqdim edilib. Seçim Komissiyasının qərarına əsasən 18 ölkəni (İspaniya, Böyük Britaniya, İtaliya, Türkiyə, Belçika, Rusiya və digərləri) təmsil edən 30 film festivalın beynəlxalq, 26 film isə yerli müsabiqədə iştirak hüququ qazanıb.

Builki yeniliklərdən biri festivalın əsas mükafatı olan "Qızıl Nar" heykəlciyinin gənc heykəltaraşlar tərəfindən zövqlə hazırlanmış yeni dizaynda təqdim olunmasıdır. Bundan başqa, Azərbaycan kinosuna yeni gənc rejissorlar qazandıran festivalın builki qaliblərinə yerli müsabiqədə "Ən yaxşı bədii film", "Ən yaxşı sənədli film", "Ən yaxşı animasiya filmi", "Ən yaxşı sosial çarx" nominasiyaları üzrə qaliblərə pul mükafatı veriləcək. Yerli müsabiqənin ümumi mükafat fondu 5 min manatdır.

12-ci kinoforumun film proqramında zənginliyi ilə, bədii yanaşması ilə fərqlənən, maraqlı, təsirli 73 qısa film tamaşaçıların zövqünü oxşamaqla, uzun müddət yaddaşlarda qalacaq.

**Xaqani KOSAYEV,**
**“Respublika”.**

Respublika.- 2021.- 21 noyabr.- S.6.